# Yüksək xidmət naminə

Ağstafa Rayon MKS 1990-cı il sentyabrın 1-də təşkil olunub. O, özündə bir mərkəzi, 48 şəhər və kənd kitabxana filialını birləşdirir. Rayon ərazisində 77068 nəfər əhali yaşayır ki, bunların da 46,7 faizi kitabxanalara cəlb olunub.

İl ərzində MKS öz fəaliyyətini əsasən kitabxana fondlarının komplektləşdirilməsi, əhalinin kitabxanaya cəlb olunması, oxuculara xidmətin səviyyəsinin yaxşılaşdırılması, kitab təbliğinin gücləndirilməsi, əlamətdar və tarixi günlərin, şair və yazıçıların yubileylərinin qeyd edilməsi istiqamətində qurmuşdur.



MKS-ə daxil olan kitabxana-filialların fondların komplektləşdirilməsi məqsədilə Respublika Kitabxana Kollektoru ilə müvafiq müqavilə bağlanmış, kitab və kitabxana texnikası alınmışdır. M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasından 240 nüsxə kitab götürülmüşdür. Respublika Prezidentinin 12 yanvar 2004-cü il tarixli sərəncamına müvafiq olaraq Ağstafa Rayon MKS-ə indiyə kimi 25795 nüsxə kitab hədiyyə edilmişdir. Bundan başqa kitabxanaya oxucular və müəlliflər, digər idarə və təşkilatlar tərəfindən də yeni kitablar hədiyyə olunmuşdur. Yeni alınmış kitablar vaxtında işlənilərək oxucuların istifadəsinə verilmişdir. Hazırda MKS üzrə kitab fondu 392864 nüsxə təşkil edir.

Əhalinin kitabxanaya cəlb olunması məqsədilə kitabxana işçiləri müxtəlif idarə və təşkilatlarda, məktəblərdə olmuş, söhbətlər aparmış, kitabxana fondları haqqında əhalini məlumatlandırmışlar.

Kitab təbliği məqsədilə kitabxanalarda müxtəlif əyani və şifahi tədbirlərin keçirilməsinə xüsusi diqqət verilir. İlk növbədə Respublika Prezidenti tərəfindən hədiyyə edilən kitabların təqdimat mərasimləri keçirilir, yeni kitablara, əlamətdar və tarixi günlərə, yubileylərə həsr olunmuş geniş sərgilər tərtib edilir. Cari ildə bütün kitabxanalarda 20 yanvar və Xocalı faciələrinə həsr olunmuş «Əsrə bərabər gecə», «Tarixin qan yaddaşı», «Qanla yazılan gecə» və s. mövzularda xatirə gecələri, ədəbi-bədii gecələr keçirilmiş, ehsanlar verilmişdir. Bundan başqa Novruz bayramı münasibətilə «Xonçalı Novruz gəlir», «Yaz bayramı, saz bayramı» adlı ədəbi-bədii gecələr, «31 mart Azərbaycanlıların soyqırımı günüdür» adlı ədəbi-bədii kompozisiya, faşizm üzərində Qələbənin 62 illiyi münasibətilə veteranlarla görüşlər, 28 may ADR-nın yaradılması günü münasibətilə «Bir kərə yüksələn bayraq», «Azərbaycan Xalq Cümhuriyyəti» adlı ədəbi-bədii gecə, oxucu konfransları və məruzələr, 15 iyun Qurtuluş günü münasibətilə «Xalqın xilaskarı», «Azərbaycanlı dahi», «Qayıdış» adlı məruzə və söhbətlər, S.Vurğunun anadan olmasının 100 illiyi münasibətilə «Unutmaz bu oba, bu mahal məni», S.Rüstəmin anadan olmasının 100 illiyi münasibətilə «Söz gülüstanında yaxşı ki, varam» adlı ədəbi-bədii gecələr, N.Həsənzadənin anadan olmasının 75 illiyi münasibətilə şeir gecəsi, Molla Nəsrəddin jurnalının 100 illiyi münasibətilə oxucu konfransı keçirilmişdir. Xalq şairləri S.Vurğunun anadan olmasının 100, N.Həsənzadənin anadan olmasının 75 illiyi münasibətilə mədəniyyət evləri və klublarla birlikdə şeir müsabiqəsi keçirilmişdir. Bundan başqa silahlı qüvvələr günü münasibətilə rayon ərazisində yerləşən bütün hərbi hissələrdə əsgərlərlə görüşlər keçirilmiş, hərbi hissələrə kitab hədiyyə edilmişdir.

MKS-nin «Metodiki» şöbəsində kənd kitabxana-filiallarına metodiki köməklik göstərmək məqsədilə vaxtaşırı olaraq yerlərə gedişlər təşkil olunmuş, yerindəcə kitabxanaçılara metodiki məsləhətlər verilmişdir. Şöbə tərəfindən «Narkomaniya bəşəriyyətin bəlasıdır», «Kitabxanalarda vətənpərvərlik tərbiyəsi» adlı metodik vəsaitlər tərtib edilmişdir.

«Məlumat-biblioqrafiya» şöbəsi tərəfindən MKS-nin toplu, sistemli və əlifba kataloqları müntəzəm olaraq redaktə edilir. Şöbə tərəfindən «Azərbaycan tarixi», «Qanunlar, qərarlar, fərmanlar», «Şair və yazıçılar» adlı kartotekalar, eyni zamanda yubileyləri keçirilən şair və yazıçıların şəxsi kartotekaları tərtib edilir. Azərbaycan Respublikası Prezidenti tərəfindən hədiyyə edilmiş və digər mənbələrdən alınmış yeni kitablar haqqında oxuculara məlumat vermək məqsədilə müntəzəm olaraq «Yeni kitabların bülleteni» adlı göstərici tərtib edilmişdir.

İl ərzində xəstə və əlil oxuculara evlərdə kitabxana xidməti göstərilmişdir.

**İradə NAMAZOVA,**
**Ağstafa Rayon MKS-nin direktoru**